# Qəhrəmanlıq kitabı

Noyabr ayının ilk ongünlüyü Azərbaycan xalqı üçün xüsusi önəm kəsb edir. Çünki bu tarixlərdə müzəffər Azərbaycan ordusu zəfər qazanıb. Bu səbəblə Azərbaycanın bütün bölgələrində bayram tədbirləri keçirilir.




Zəfər günü tədbirlərinə təsadüf edən xüsusi bir tədbiri qeyd etmək tam yerinə düşər. "İnsanlığın zirvəsi" kitabının təqdimat mərasimi... Bu təqdimat Qəbələ ədəbi mühitinin ən dəyərli hadisələrindən biri idi.

"İnsanlığın zirvəsi" kitabı Azərbaycan Respublikasının Milli qəhrəmanı general-mayor Polad Həşimova həsr olunmuşdur. Kitabın müəllifi isə qəzetimizin məsul katibi, yazıçı, publisist, jurnalist Bibixanım İsayevadır. Bibixanım İsayeva Qəbələnin Vəndam qəsəbəsində anadan olub və böyük ədəbiyyatı, publisistikanı, jurnalistikanı burada yaşayıb, yaradan qadın müəlliflərdən biridir.

Kitab yazmaq heç də asan bir iş deyil. Xüsusi ilə də kitab Polad Həşimov kimi bir qəhrəmandan yazılırsa, şəhidlərdən yazılırsa... O yazılan kitabı layiqincə təqdim etmək də hər kəsə nəsib olmur. 6 noyabr tarixində Qəbələ rayon Mədəniyyət Mərkəzində biz bunun şahidi olduq. Kitabın adını bilən, eşidən hər kəs orada idi. Hətta zal dolu olduğu üçün qapıdan geri qayıdanlar da var idi. Bu isə qəbələlilərin müəllif və Polad Həşimova olan sevgisinin göstəricisi idi. Zal soyuq olsa da, hər kəs sona qədər tədbirdə iştirak etdi.

Tədbirdə rayon icra hakimiyyəti, idarə və təşkilatların nümayəndələri, Vətən müharibəsi iştirakçıları, qazilər, şəhid valideynləri və Polad Həşimovun ailə üzvləri iştirak edirdi. Tədbirin gedişatında məktəb şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda musiqi və şeirlər səsləndirildi, Polad Həşimovun həyat yolunu əks etdirən videoçarx təqdim edildi.

Daha sonra Polad Həşimovun anası Səmayə xanım video görüntü vasitəsilə tədbir iştirakçılarına Polad Həşimovla bağlı xatirələrini danışıb və kitab haqqında fikirlərini bildirib.



Tədbirdə çıxış edib: RİH başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə xanım, "Qəbələ" qəzetinin redaktoru Azad Məmmədov, Polad Həşimovun həyat yoldaşı Ofeliya Həşimova, "Qəbələ" qəzetinin əməkdaşı İlahə Rəhimova, Vətən müharibəsi qazisi, kapitan Müşviq Paşayev rayonumuzun ziyalısı və ictimai işlərdə fəal iştirakçısı Rəna Azaxlı, Polad Həşimovun dayısı Azər Nəsmiyev və digərləri.

"İnsanlığın zirvəsi" kitabı müəllifin ilk kitabıdır. Bu kitabda səngər generalı olan Polad Həşimovun uşaqlıq, gənclik, tələbəlik və hərbi fəaliyyəti müəllif tərəfindən portret cizgilərlə, bədii dillə çox gözəl şəkildə ifadə edilmişdir. Həmçinin kitabda Polad Həşimovun silahdaşlarının, müəllimlərinin xoş xatirələri, qəhrəmanımızla bağlı ümumxalq sevgisi, həyata keçirilməsi vacib olan arzuların reallaşması, insanların yaddaşında onları narahat edən "kaş ki...lər" publisist qələmiylə qeyd olunmuşdur.

Kitabda maraqlı bölmələr yer alıb: "Yazılması vacib olan qəhrəman", "Genetik kod", "Dövlət və xalq", "Təzadlar", "Polad Həşimov xatirələrdə", "Arzular reallığa doğru". Hər bölmədə isə bir-birindən gözəl yazılara rast gəlmək mümkündür. Müəllif "ön söz"ünün sonunda çox nikbin, qürurlu duyğularla fikrini yekulaşdırır. O bildirir ki, xalqımızın igid oğlu Polad Həşimov torpaqlarımızın işğaldan azad olunması üçün səngərdə idi. O, sözün həqiqi mənasında, səngər qəhrəmanı idi.

Polad İsrayıl oğlu Həşimov öz mərdliyi, qeyrətiylə bu vətən, bu xalq üçün sözün əsl mənasında öz canını qoydu. Bu gün o cismən bizlə olmasa da, ruhən yanımızdadır. Onun yaşamı da, şəhidliyi də xalq üçün bir örnək oldu.

Bu kitab da gələcək nəsillər üçün əsl tarixi bir sənəddir. Bu kitabı oxumaq və Polad Həşimovun timsalında bütün şəhidlərimizi yad etmək hər birimizin borcudur. Bir gənc olaraq hər birimizin borcudur ki, bu cür kitabları ərsəyə gətirən insanlardan, qələm əhlindən nələrisə öyrənməyə çalışaq, onları təbliğ edək. Çünki onlar Polad Həşimov kimi qəhrəmanlarımızı yaşadırlar.

Onu da qeyd edək ki, qəhrəmanımız haqqında müəllifin ikinci kitabı da nəzərdə tutulub.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Qələbə ərəfəsində

## Ziyarət edilmişdir

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsi və rayon təhsil şöbəsinin təşkilaçılığı ilə "Zəfər yolu" adlı tədbir çərçivəsində Vətən müharibəsi şəhidlərinin



valideynləri, qazilər, ümumtəhsil məktəblərinin hərbi rəhbərləri və yuxarı sinif şagirdləri "8 Noyabr - Zəfər Günü" münasibətilə ulu öndər Heydər Əliyevin abidəsini, Birinci Qarabağ və Vətən müharibəsi şəhidlərinin adlarını əbədiləşdirmək məqsədilə salınmış Şəhidlər Xiyabanını ziyarət etmişlər.

## Zəfər yolu

Bu gün Qəbələ rayon Heydər Əliyev Mərkəzində Dövlət Rəsm Qalereyasının Uşaq İncəsənət məktəbi ilə birgə təşkil etdiyi 8



Noyabr - Zəfər Gününə həsr edilmiş sərgi müsabiqənin yekun mərhələsi keçirilmişdir. Tədbirdə İsmayıllı Regional Mədəniyyət İdarəsinin və rayon mədəniyyət şöbəsinin əməkdaşları iştirak etmişlər. Münsiflər heyəti tərəfindən seçilmiş, ən yaxşı çəkilmiş rəsmlər diplom və hədiyyələrlə mükafatlandırılmışdır. Sonda şagirdlərin ifasında vətənə, qələbəyə həsr olunmuş şeir kompozisiyası və musiqi parçaları da səsləndirilmişdir.

## Biz birlikdə güclüyük

Qəbələ Rayon Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyəti və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə Zəfər Gününün birinci ildönümü münasibətilə tədbir keçirilmişdir. İştirakçılar tərəfindən öncə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstləri qoyularaq xatirəsi anılmış və tədbir Heydər Əliyev Mərkəzində davam etdirilmişdir. Gənclər və bölgədə yaşayan etnik xalqların, dini icmaların nümayəndələrinin, eləcə də müharibə iştirakçıları, qazilər və şəhid valideynlərinin iştirak etdiyi tədbirdə şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla anılmış və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəsi Araz Qurbanovun "Biz birlikdə güclüyük" mühazirəsi dinlənilmişdir. Sonda "Biz birlikdə güclüyük" filminə baxış keçirilmişdir.

## Bədii qiraət, rəsm üzrə müsabiqə

Qəbələ rayon Mədəniyyət Mərkəzində 8 Noyabr - Zəfər gününə həsr edilmiş rayon Mədəniyyət müəssisələrində fəaliyyət



göstərən yaradıcılıq dərnəkləri arasında Zəfər yolumuz başlığı altında keçirilmiş bədii qiraət və rəsm müsabiqəsinə yekun vurulmuşdur. Müsabiqədə bədii qiraət üzrə Soltanova Aysel Elçin qızı, rəsm üzrə isə Nuruyeva Çiçək Sərvan qızı birinci yerə layiq görülmüşlər. Qaliblər Mədəniyyət Mərkəzi tərəfindən Fəxri fərman və hədiyyələrlə mükafatlandırılmışlar.

## "Qələbə" tamaşası

Qəbələ rayon Mədəniyyət Mərkəzinin səhnəsində İ.B.Qutqaşınlı adına Xalq teatrının üzvlə-



rinin ifasında 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tamaşa nümayiş etdirilmişdir. Senari müəllifi Nargilə Rəhman səhnə quruluşçusu Nihad Cəlilzadənin olduğu "Qələbə" tamaşası məktəblilər və ictimaiyyət nümayəndələri tərəfindən maraqla qarşılanmışdır

## "Zəfərə gedən yol" - inşa-yazı müsabiqəsi

8 noyabr - Zəfər gününə həsr edilmiş "Zəfərə gedən yol" mövzusunda inşa-yazı müsabiqəsi keçirilmişdir. Müsabiqəyə rayonun tam orta ümumtəhsil məktəblərindən yeniyetmə və gənclər qatılmışdır.

Rayon Mədəniyyət evinin akt zalında müsabiqənin yekunu və qaliblərin mükafatlanma mərasimi keçirilmişdir.

Tədbiri giriş sözü ilə rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov açmışdır.

Təhsil şöbəsinin müdiri Arifə




Bayramova və Mədəniyyət şöbəsinin nümayəndəsi Nargilə Qafarova müsabiqənin yekunlaşdığı barədə məlumat vermiş, müsabiqənin keçirilməsinin məqsəd və vəzifələri haqqında danışaraq bildirmişdir ki, inşa müsabiqəsinin keçirilməsində məqsəd gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyə olunmasından ibarətdir.

İnşa yazı müsabiqəsinin yekunlarına əsasən Baxışlı Mənsurə Mənsur qızlı I yer, Vəliyeva Səbinə Akif qızı II yer, Ağazadə Mətin Oktay oğlu III yerə layiq görülmüşlər.

Qaliblər Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**Gənclər və İdman İdarəsinin baş məsləhətçisi.**

## Stolüstü tennis turniri

Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Olimpiya İdman Kompleksində 8 noyabr Zəfər gününə həsr edilmiş stolüstü tennis üzrə kişilər arasında rayon turniri keçirilmişdir. Yarışın keçirilməsində məqsəd stolüstü tennis idman növünün inkişaf etdirilməsi, yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etmək, idmanın kütləviliyinə nail olmaqdan ibarətdir.

Turnirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək yarış iştirakçılarını salamlamış, 8 noyabr - Zəfər günü münasibətilə idmançıları təbrik etmiş, bayramın yaranma tarixi haqqında məlumat vermiş və cənab Prezident İlham Əliyevin Respublikamızda idmana və idmançılara göstərdiyi dövlət qayğısından danışaraq, hər cür şəraiti olan yeni nəhəng idman qurğularının idmançıların istifadəsinə verildiyini bildirmişdir.



İdarənin aparıcı məsləhətçisi Elçin Osmanov yarış iştirakçılarının nəzərinə çatdırdı ki, belə turnirlərin keçirilməsi rayon ərazisində bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, idmanın kütləviliyinə nail olmaq, gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması və Olimpiya İdman Kompleksindən səmərəli istifadə olunmasında müstəsna əhəmiyyət kəsb edir.

Turnirdə rayonun idarə, müəssisə və idman kollektivlərindən olan 15-dək idmançı gərgin oyun nümayiş etdirmişlər. Birinciliyin yekun nəticəsinə əsasən Ramiz Mirkalamov I yeri, Rübayil Qarayev II yeri və Artuş Qukasari III yeri tutmuşlar.

Qaliblərə rayon Gənclər və İdman İdarəsinin kubok və diplomları təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**